

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

2 sentyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 33 (3546)


# ŞUŞADAN GÖRÜNƏN AZƏRBAYCAN

## *Qarabağda həyata keçirilən tədbirlər regionda sülhə çağırışdır*






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqust ayının 29-dan 30-dək Şuşa şəhərində səfərdə olarkən Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin açılış mərasimində iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım ev-muzeyi ilə tanış olublar.

Muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, onun qavalı, həmçinin Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, xalq musiqisinin öyrənilməsi və təbliğində çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilib.

Ölkəmizin rəhbəri Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak edib.

Məlumat verilib ki, yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında öz əvvəlki yerində ucaldılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə də tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma burada görüləcək işlər barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev Şuşada “Otel və Konfrans Mərkəzi”nin təməlini qoyub.

Bildirilib ki, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu “Otel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Beş mərtəbədən və 150 nömrədən ibarət “Otel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.

Səfər zamanı ölkəmizin rəhbərinə Şuşa şəhərinin baş planı təqdim olunub.

Məlumat verilib ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Prezident İlham Əliyev 1-ci məhəllənin təməlini qoyub.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir” və “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgiləri ilə tanış olublar.

Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilib. Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə Xalq rəssamları Altay Hacıyevin “Məclisi-üns”, Səttar Bəhlulzadənin “Yuxarı Daşaltı”, Əməkdar rəssam İnna Kostinanın “Qarabağın zənginliyi”, Leyla Əliyevanın “Xarıbülbül” əsərləri, Faiq Hacıyevin “Qarabağ atı”, Orxan Nəbizadənin “Qarabağ gözəli” kimi heykəltəraşlıq nümunələri və digər əsərlər nümayiş olunub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Xalçaçılıq Qalereyasında “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgisi ilə tanış olublar. Sərgidə xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunub.

Vaqif Poeziya Günləri çərçivəsində “Yaddaş. Fotoqrafik tarix” sərgisi də təşkil edilib. Fotosərgi Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirib.

Ziyarətçilərə işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair, həmçinin Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən cinayətləri əks etdirən fotolar da təqdim edilib.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

## Prezident idmançıları təbrik edib

Dövlətimizin başçısı “Tokio-2020” Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımıza təbrik ünvanlayıb.

Bununla bağlı o, tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: ***“İkinci dəfə qızıl medalı ilə bizi sevindirən Raman Salehi, gümüş medal qazanmış Lamiyə Vəliyevanı və bürünc medal mükafatçısı Səid Nəcəfzadəni ürəkdən təbrik edirəm!”.***

## *Rəsmi xronika*

*Azərbaycan Prezidenti İlham Əliyev avqustun 27-də Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Akif Hümbət oğlu Hümbətovun 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri avqustun 27-də Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı avqustun 30-da Qırğız Respublikasının Prezidenti Zati-aliləri cənab Sadır Japarova Qırğız Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə təbrik məktubu ünvanlayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev avqustun 30-da Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.*

*Avqustun 31-də dövlətimizin başçısı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı avqustun 31-də Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə Özbəkistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə təbrik məktubu ünvanlayıb.*

## Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin məlumatı

Daxil olmuş məlumatlar və keçirilən yoxlamalar nəticəsində bəzi şəxslərin ölkəmizdə koronavirus pandemiyası əleyhinə aparılan vaksinasiya prosesinə qanunsuz yollarla müdaxilə edərək pul müqabilində ayrı-ayrı vətəndaşlara dair məlumatları “e-tebib” elektron qeydiyyat sisteminə yerləşdirmələri və bunun da guya peyvənd olunmaları ilə bağlı onlara saxta “COVID-19” pasportu satmaları müəyyən olunub.

Belə ki, Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən avqustun 30-da keçirilən tədbirlərlə saxta “COVID-19” pasportu satmaqda şübhəli bilinən Bakı şəhər sakinləri Fikrət Şıxıyev, Eldar Mirzəyev və Şirin Şirəliyev saxlanılmışlar.

İlkin dindirmə zamanı onlar hər birindən 225 manat almaqla 40 nəfər şəxsə belə saxta sənəd satdıqlarını etiraf etmişlər. F.Şıxıyevə məxsus “Mercedes” markalı avtomobilə baxış keçirilərkən bir vətəndaşa məxsus vaksinasiyanın hər iki dozası qeyd olunmuş “COVID-19” pasportu, 30 nəfərə aid üzərilərində mobil nömrələri yazılmış şəxsiyyət vəsiqələrinin surətləri və bank kartları aşkar edilərək götürülmüşdür.

Hazırda faktla bağlı Rayon Polis İdarəsinin və Rayon prokurorluğunun əməkdaşları tərəfindən əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*31 avqust 2021-ci il*

# Yeri səngər, Vətənə əsgər oğullar

Vətən müharibəsi qazisi, mayor Elşən Məmmədovun barəsində növbəti dəfə məqalə hazırlamaq üçün nə az, nə çox, düz 12 ildən sonra Daxili Qoşunların Hərbi Hospitalında görüşməli olduq. Lakin bu dəfə mayor E. Məmmədovdan müsahibəni ən böyük arzusuna çatmış Vətən müharibəsinin qalib iştirakçısı, iki dəfə - Cəbrayıl və Şuşa istiqamətlərində yaralanmış cəsur silahdaşımız kimi aldım.

O, 1973-cü il noyabrın 5-də Bakı şəhərində doğulub. Orta təhsilini Nəsimi rayonundakı 28 saylı tam orta məktəbdə alıb. Sərbəst güləş Elşənin ən çox sevdiyi idman növü olub. Respublika birinciliklərində, o cümlədən, beynəlxalq turnirlərdə dəfələrlə qələbələrə imza atıb, "İdman ustası" fəxri adını qazanıb. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında "Bədən tərbiyəsi və idman" ixtisası üzrə ali təhsil alıb. Müddətli həqiqi hərbi xidmətini 1991-1995-ci illərdə Daxili Qoşunların Bakı şəhərindəki "N" saylı hərbi hissəsində keçib. Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda Füzuli rayonu ərazisində gedən döyüş əməliyyatlarında iştirak edib. 1995-ci ilin yanvar ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirən silahdaşımız 2013-cü ilin aprel ayınadək qoşunların bir sıra hərbi hissələrində, Tədris Mərkəzində (hazırda Ali Hərbi Məktəb), eləcə də Daxili Qoşunların Baş İdarəsində müxtəlif vəzifələrdə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib. 2013-cü ilin aprel ayından Daxili Qoşunların Qubadakı "N" saylı hərbi hissənin "Bəbir" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsində dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmətini davam etdirən mayor E.Məmmədov cəsur xüsusi təyinatlılarımızın mənəvi-psixoloji durumunun, o cümlədən hərbi vətənpərvərlik tərbiyəsinin və döyüş ruhunun yüksəldilməsinə öz layiqli töhfəsini verib. Məhz bu dəstənin zabiti kimi 44 gün davam edən Vətən müharibəsində Murovdağdan Şuşayadək şanlı döyüş yolu keçib.




Döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq, bu gün də Vətən uğrunda döyüşməyə və onun yolunda canından belə keçməyə hazır olduğunu dedi: ***"Dəstəmiz sentyabrın 27-dən mayor Şixamir Qaflanovun rəhbərliyi altında döyüş əməliyyatlarına qatıldı. Mən isə Müdafiə Nazirliyinin Cəlilabaddakı "N" saylı hərbi hissəsinin tərkibində, xüsusi təyinatlılarla birgə döyüşlərə atıldım. Qarşımıza düşmənin tank və digər zirehli texnikasını məhv etmək tapşırığı qoyulmuşdu. İlk döyüşümüz Goranboy rayonu ərazisindəki "Orta Camış" adlanan yüksəklikdən Kəlbəcər istiqamətinə doğru oldu. Dəstəmizin tərkibində vuruşan və Müdafiə Nazirliyinin əsgəri olan ilk şəhidimizi də məhz bu döyüşdə verdik. Lakin, buna baxmayaraq, dörd gün davam edən döyüşlər zamanı ermənilər canlı qüvvə və hərbi texnika sarıdan xeyli itki verdilər. Sonra bizi Cəbrayıl istiqamətinə gətirdilər".***

O, Cəbrayıl istiqamətində gedən döyüşlərdə ayağından yaralanıb. Biləsuvar Rayon Mərkəzi Xəstəxanasına təxliyyə olunsa da burada dörd gün müalicə aldıqdan sonra, yenidən ön cəbhəyə qayıdıb. Xidmət etdiyi dəstənin növbəti tapşırığı Füzulidə yerləşən düşmən mövqeləri üzərinə hücuma keçmək idi.

Hərbi qulluqçumuz Vətən müharibəsi qəhrəmanı, mayor Ş.Qaflanovla sonuncu söhbətini belə xatırlayır: ***"Mayor Qaflanovla sonuncu dəfə Beyləqanda olarkən telefonla danışmışdıq. "İstiqamətiniz haradır", - deyə mənə sual vermişdi. Mən də Füzulidir,- demişdim. O da mənə: "Elə bizim də istiqamətimiz oradır. Allah hamımıza kömək olsun", - demişdi. Ondan sonra nə özünü gördüm, nə də səsini eşitdim".***

Füzulini düşməndən azad etdikdən sonra Şuşa uğrunda döyüşləri bir möcüzə adlandırır mayor E.Məmmədov:***"Polkovnik-leytenant Füzuli İmrəliyevin komandir olduğu dəstə ilə Şuşa istiqamətində üç gün yol getdik. Qarşımıza Şuşa şəhərinə ön qapıdan daxil olmaq üçün ətrafdakı təpəni götürmək tapşırığı qoyulmuşdu. Digər qruplar isə arxa tərəfdən şəhərə daxil olmalı idi. Onlar artıq demək olar ki, şəhərə daxil olmuşdular və şiddətli döyüşlər gedirdi. Təpədə düşmənin gücləndirilmiş mövqeləri yerləşdiyindən, buranı tutmaq bizim üçün bir qədər çətin oldu. Bizim şəxsi heyət şəhər ətrafındakı meşəlik ərazidə mövqe tutmuşdu. Yaxşı yadımdadır, noyabr ayının 5-i doğum günüm idi. Üzərimizə doğru irəliləyən düşmən tanklarından birini meşənin içərisində vurduqdan sonra digəri şəhərə doğru geri çəkilməyə məcbur oldu. Bu zaman ermənilərin kortəbii şəkildə üzərimizə doğru atdığı güllələrdən biri yenə ayağımdan dəydi. Biz üç gün meşədə qaldıq. Şuşa və ətraf ərazilər ordumuzun nəzarətinə keçəndən sonra yollar açıldı və noyabrın 8-də bizi təxliyyə etdilər. Həkimlərimizin sayəsində tez bir zamanda sağlamlığım bərpa olundu və xidmətimi indi də davam etdirirəm".***



***Azərbaycan Respublikası Prezidentinin 09 və 25.12.2020-ci il tarixli sərəncamları ilə mayor Məmmədov Elşən Tağı oğlu "Qarabağ" ordeni, "Füzulinin azad olunmasına görə" medalı, eləcə də Azərbaycan Respublikası müdafiə nazirinin 09.12.2020-ci il tarixli müvafiq əmri ilə "Şücaətə görə" medalı ilə təltif edilib.***

Hərbi qulluqçumuz bu ilin mayından qoşunların Hacıqabul rayonundakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində Vətənə olan şərəfli borcunu bu gün də layiqincə yerinə yetirir.

*mayor Anar Əhmədov*

# Narkomaniya ilə mübarizədə ümumvətəndaş hərəkatı

## *Polis-vətəndaş həmrəyliyi gəncliyi qorumağa yönəlib*

Bu gün cinayətkarlığa, xüsusən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə ümumvətəndaş hərəkatına çevrilib desək yanılmarıq. Narkomaniyanın gələcəkdə dövlətin və xalqın inkişafını əngəlləyən maneəyə çevrilməsini önləmək üçün gecəli-gündüzlü xidmət aparan polisin həyata keçirdiyi əməliyyat tədbirlərinə dəstək olaraq vətəndaşların DİN-nin, eləcə də Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki səhifələrində minnətdarlıq hissləri ifadə etmələri, həm də "ağ ölüm" alverçilərini ifşa etməkdə əsl vətəndaş mövqeyi sərgiləmələri bunu deməyə əsas verir.

Azərbaycanın ikinci sənaye şəhəri sayılan Sumqayıtda da XXI əsrin bəlası olan "ağ ölüm"ün gənclər arasında geniş yayılmasının qarşısının alınmasında polis və vətəndaş həmrəyliyi keçirilən tədbirlərin bariz nümunəsidir.

Sumqayıt Şəhər **Polis İdarəsi rəisinin əməliyyat işləri üzrə müavini, polis polkovniki Rauf Babaşovun** sözlərinə görə, vətəndaş-polis həmrəyliyi narkomaniya ilə mübarizədə əhəmiyyətli dərəcədə rol oynayıb. İdarə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində təkcə avqust ayının 1-dən 28-dək 38 fakt üzrə 38 nəfər saxlanılıb. Onlardan 934.984 qram heroin, 4 kiloqram 610.22 qram marixuana, 227.314 qram psixotrop maddə metamfetamin, eləcə də 8 kiloqram çəkidə 11 ədəd kannabis kolu aşkar edilərək götürülüb. Ümumilikdə, 5 kiloqram 772.518 qram narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb.



Narkomaniya ilə mübarizədə ən effektiv metodlardan biri kimi maarifləndirmənin, o cümlədən ictimai qınağın, eyni zamanda uşaqlara valideyn nəzarətinin harmoniyası hədəflərə çatmağa əsas prioritetlərdəndir. Yəni, polisin yeniyetmələr arasında apardığı "Narkotiklərə yox deyək!", "Narkotiksiz dünya" və s. kimi antitəbliğat kampaniyaları ilə yanaşı, valideynlərin də övladlarını daima nəzarətdə saxlaması, narkotiklərin törətdiyi fəsadlar barədə malumatlandırması, narkotik istifadəçilərinin cəmiyyət tərəfindən qınanması, onların reabilitasiyası üçün əməli addımların atılması olduqca vacib məsələlərdir.

Yeri gəlmişkən, Sumqayıt ŞPİ-nin İstintaq Şöbəsi əməkdaşlarının da müvafiq dövrü ərzində xidməti ürəkaçandır. Bununla bağlı faktları diqqətimizə çatdıran **İstintaq Şöbəsinin rəisi, polis mayoru Cavidan Əlizadə** görülən işlərdən bir neçəsi ilə bizi tanış etdi.

Bugünlərdə vətəndaşın etibarından suiistifadə etməklə ona xeyli miqdarda maddi ziyan vuran şəxs saxlanılıb. İstintaq zamanı məlum olub ki, özünü İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi kimi təqdim edən Qubadlı rayon sakini Məmməd Həsənov tamah niyyətilə Sumqayıt şəhərindəki 3 otaqlı sosial mənzili satacağı barədə vətəndaş Əlləddin Həsənova yalan vəd verərək 10 min manatını alıb. Üstündən bir müddət keçməsinə baxmayaraq o, mənzili Ə.Həsənova təhvil verməyib. Zərərçəkmiş pulunun ona qaytarılmadığı üçün polisə müraciət edib.

Təqsirləndirilən şəxs İŞ-nin müstəntiqi, polis mayoru Bayram Əsgərovun topladığı materiallar əsasında qanuna təslim edilib və vətəndaş Ə.Həsənova vurduğu maddi ziyanın ödətdirilməsi təmin olunub.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Ananın fəryadına polis yetişdi

Adətən, düzgün qurulmayan ailədaxili münasibətlər münaqişəyə səbəb olur və ailələr dağılır. Bu vəziyyətdən isə ən çox, təbii ki, uşaqlar zərər görür. Belə hallarda həm uşaqları qorumaq, həm də münaqişənin daha ciddi fəsadlar törətməməsi üçün polisin hadisələrə müdaxiləsi zəruri prosesə çevrilir.

Xətai rayonunda da oxşar hadisə baş verib. Boşanmış ailə ilə bağlı bir neçə məhkəmə instansiyası övladın anada qalması barədə qərar versə də, qərarı iki il ərzində icra etmək mümkün olmayıb. İcra məmurları uşağı bir neçə dəfə anaya təhvil veriblər, ancaq onu yenidən atası aparıb, sonuncu dəfə isə geri qaytarmaqdan imtina edib.

Əli hər yerdən üzülən uşağın anası Sədaqət Xanzadəyeva övladının itkin düşməsi barədə polisə məlumat verəndən sonra işə Xətai Rayon Polis İdarəsi qarışıb.

**İdarənin İctimai Təhlükəsizlik Şöbəsinin bölmə rəisi, polis kapitanı Fərid Rəhimov** qəzetimizə bildirib ki, onlar uşağın yerini müəyyən ediblər, lakin 14 yaşlı yeniyetmə atası ilə qalmaq istədiyinə görə onun dərhal anasına təhvil vermək mümkün olmayıb. Bundan sonra polis əməkdaşları həm uşaqla, həm də atası ilə apardıqları profilaktik söhbətlə məsələni həll etməyə çalışıblar. Nəhayət, polis əməkdaşlarının səyləri nəticə verib və uşağı anasına qaytara biliblər.

Bölmə rəisinin sözlərinə görə, polis əməkdaşları vəziyyəti daim nəzarətdə saxlayırlar.

Yeri gəlmişkən, elə uşağın anası S.Xanzadəyeva da DİN rəhbərliyinə ünvanladığı məktubda Rayon Polis İdarəsinin fəaliyyətini yüksək qiymətləndirərək, övladına qovuşmasında göstərdikləri köməyə görə onlara minnətdarlığını ifadə edib.

*R.Mehtiyev*

# Koronavirus xəstələri saxlanılıb

## *Nəzarət-profilaktiki yoxlamalar davam etdirilir*

Polis əməkdaşları tərəfindən xidməti formada və mülki geyimdə keçirilən tədbirlərlə tibbi maskadan istifadə etməyən, müəyyən olunmuş norma və qaydalara riayət etməyən şəxslərin profilaktikası, eləcə də aktiv koronavirus xəstələri üzərində nəzarət daha da gücləndirilib.



Təəssüflər olsun bəzi vətəndaşlar bu virusun ağır fəsadlara gətirib çıxaracağının mahiyyətinə varmır, qaydalara riayət etməyə məsuliyyətlə yanaşmırlar. Narahatlıq doğuran səbəblərdən biri "COVID-19" infeksiyasına yoluxmuş şəxslərin yaşayış yerini tərk etməsidir.

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Avqust ayının 25-dən 31-dək olan müddətdə polis əməkdaşları tərəfindən 58 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 17 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*C.Natiq*

# Gücümüz milli birliyimizdədir

## Azərbaycançılıq ideologiyası bizi birləşdirən ən ali dəyərdir

**Qədim-qaim yurdumuzu itirə-itirə gəldiyimiz illərdə o bizdən uzaqlaşmırdı, dərd kimi ağrılı-ağrılı süzülüb içimizə dolurdu. Bir də baxdıq ki, köksümüzdə qor bağlamış qubarımız həm də dəyərə çevrilib, ölkəmizdəki bütün xalqların nümayəndələrinin ətrafında sıx birləşdiyi azərbaycançılıq məfkurəsinə bürünüb Qarabağ.**



Yuri Kovalyov



İqor Makeyev

Münaqişə başlayandan hadisələrin mərkəzində yeganə nizami qüvvə kimi dayanmış o vaxtkı milisin də milli mahiyyətini Qarabağ dərdinin körüklədiyi azərbaycançılıq duyğusu ortaya çıxarmışdı. Səngərdə bir əsgər kimi vuruşub, düşmənə sipər olan daxili işlər orqanlarının əməkdaşları Qarabağa asayişin mühafizəsi adı altında ezam olunanda sıralarında ölkəmizdə yaşayan hər xalqın nümayəndəsi vardı.

Yeri gəlib deyə, onlardan ikisinin - Yuri Kovalyov və İqor Makeyevin adını çəkmək, yada salmaq istərdik. ***"Qarabağ mənim Vətənim, ağrım, kədərimdir!"***

Xüsusi təyinatlı milis dəstəsinin milis nəfəri, milis starşinası Yuri Kovalyov Birinci Qarabağ müharibəsində cəbhədən evə göndərdiyi fotoşəklinin arxasına belə yazırdı. Bu cümlə o zaman hökm sürən ağır hərbi-siyasi vəziyyəti təsvir etməkdən tutmuş, milli hisslərin ifadəsinə qədər çox mətləbdən xəbər verirdi.

Kovalyov rus, ukraynalı, yəhudi və ləzgi millətlərinin nümayəndələrindən formalaşan xüsusi milis dəstəsinin qrup rəhbəri olub. Onlar rus dilində ləhcəsiz danışdıqlarına və zahirən slavyanlara oxşadıqlarına görə qarşılarına olduqca təhlükəli vəzifələr qoyulurdu. Sovet hərbçiləri adı altında düşmənin arxa cəbhəsinə daxil olan həmkarlarımız orada ermənilərin texnikasının sayı, silahlı birləşmələri və diversiya-təxribat qrupları barədə məlumat toplayıb geri qayıdırdılar.

Xocavənddəki növbəti döyüş missiyasından qayıdarkən şəhidlik zirvəsinə ucalan həmkarımızın ölümündən sonra Milli Qəhrəman elan edilməsi ona həvalə edilən vəzifələrin öhdəsindən layiqincə gəldiyini təsdiq edir.

Eləcə də adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış, şəhid oğullarımızın sırasında xatirəsini hörmətlə anılan, unudulmayan İqor Makeyevin qəhrəmanlığı, heç şübhəsiz, dillərdə dastan kimi qalacaq. Onun anasına yazdığı məktubda ***"Ana, məni düzgün başa düş! Mən Azərbaycanda dünyaya göz açmışam, ilk addımlarımı bu torpaqda atmışam. Bura mənim Vətənimdir. Özümü də bu torpağın övladı sayıram! Övlad Vətəni dar gündə qoyarmı?"***,- sözləri daxili işlər orqanlarının sıravi əməkdaşının mərdliyinin və milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycana bağlılığın təzahürüdür.

İqor Makeyev Milli Qəhrəman adını 28 nəfəri mühasirədən çıxararkən igidlik göstərib şəhidlik zirvəsinə ucalanda sərgilədiyi şəxsi şücaəti qədər, sahib olduğu milli düşüncəsinə, azərbaycançılıq məfkurəsinə görə də haqq edirdi.

Bu gün tolerant dövlət kimi dünyaya ün salan Azərbaycanda hər kəsin milli kimliyinə duyulan hörmətlə yoğrulan vətəndaş təəssübkeşliyi bizi dəmir yumruq kimi birləşdirir. İkinci Qarabağ müharibəsində də bu həmrəylik və qardaşlıq münasibəti dosta da, düşmənə də bir daha əyan oldu.

Ümid edirik, adı azərbaycanlı olub, amma özgələrin dəyirmanına su tökənlər də itirdikləri milli heysiyyat, milli ləyaqət hissini bu fədakar həmkarlarımızın timsalında tapa biləcəklər.

*R.Mehtiyev*

# Bir məktubun sorağı ilə

**"Avtomobilimin qeydiyyat şəhadətnaməsini itirmişdim. Qarşılaşdığım problemin həll olunmasında mənə göstərdikləri operativ köməkliyə, eləcə də diqqət və qayğıya görə Nəsimi RPİ Dövlət Yol Polisi Şöbəsinin rəhbərliyinə, o cümlədən əməkdaşlarına minnətdarlığımı bildirirəm".**

Bu sözləri Bakı şəhər Nəsimi rayon sakini Heyrat Qarayev redaksiyamıza ünvanladığı təşəkkür məktubunda yazır.

Vətəndaş məmnunluğunu xidmətin qayəsi hesab edən polisin cəmiyyətdəki nüfuzu həm də ona görə



yüksəkdir ki, o özü də vətəndaş olaraq hər bir işdə üzərinə düşəni vicdanla yerinə yetirir. İctimai nəzarətin gücləndirilməsində elə həmkarlarımız da maraqlıdır. Çünki məqsəd birdir: təməli möhkəm olacaq gələcək uğurlar bizi hədəfimizə çatmağa ruhlandırır.

Məhz çəkilən zəhmətin, çətin xidmətin faydasına gəlincə, vətəndaşlar da DİN-ə ünvanladıqları məktublarda yollarda xidmət aparan həmkarlarımızın fəaliyyətini təqdir edirlər. Onlar yol-nəqliyyat hadisələrinin sayında, eləcə də qəzalar zamanı ölənlərin və xəsarət alanların statistikasında da müşahidə olunan azalmanın yol polisinin apardığı qabaqlayıcı-profilaktiki, həmçinin maarifləndirmə tədbirlərinin nəticəsi olduğunun fərqindədirlər.

**Sözügedən məktuba gəlincə, Nəsimi RPİ DYPŞ-nin rəisi, polis polkovnik-leytenantı Qara Abdullayev** "Polis"ə bildirdi ki, DİN rəhbərliyinin qarşıya qoyduğu tələb vətəndaş məmnunluğunun təmin edilməsidir. Sənədləşmə ilə bağlı müraciətlərdən söz açan şöbə rəisi səlahiyyətləri daxilində olanların dərhal, operativ şəkildə əməkdaşlar tərəfindən icra olunduğunu, səlahiyyətlərindən kənar məsələlərin həlli üçün isə vətəndaşların aidiyyəti üzrə idarələrə yönləndirilməsində yaxından köməklik göstərildiyini qeyd etdi. Məsələn, sürücülük vəsiqəsini itirən hər hansı bir sakin müraciət etdikdə, o, yeni sürücülük vəsiqəsi əldə etmək üçün "ASAN xidmət" mərkəzlərinə yönləndirilir.

Müsahibimiz söhbət əsnasında, yeni tədris ilinin başlanması ilə əlaqədar görülməsi nəzərdə tutulan işlərə də toxundu. Yollardakı sıxlığın aradan qaldırılması üçün avtomobillərin dayanma, durma hallarına



qarşı nəzarətin daha da gücləndiriləcəyini deyən polis polkovnik-leytenantı Q.Abdullayev məktəblərə yaxın ərazilərdəki piyada keçidlərində uşaq və valideynlərin yolu təhlükəsiz şəraitdə keçməsinin tənzimlənməsi məqsədilə xidmətə cəlb olunan əməkdaşların sayının artırılacağını diqqətə çatdırdı.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Monitorinqlər nəticəsində...



25-31 avqust tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 47 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 19 şadlıq sarayında, 28 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 34 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;

- 1 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;

- 229 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*N.Cavadov*

# İctimai nəzarət gücləndirilməlidir

## Münaqişəli ailələri nəzarətdə saxlayan polis hadisələri qabaqlamağa çalışır

İstənilən hadisə barədə hüquq mühafizə orqanlarını vaxtında məlumatlandırmaq cinayətin önünə keçmək baxımından əvəzsiz fürsət yaradır. Zorakılığa məruz qalan, daha sonra isə bunun qurbanına çevrilən qadınların həyatı üçün də edilə biləcək tək yol var - susmamaq! Çünki ailə məişət zəminindəki münaqişələrdə susmaq, dövlət qurumlarını, o cümlədən polisi lazımi anda bilgiləndirməmək cinayətə ortaq olmaq anlamına gəlir. Ən azı mənəvi məsuliyyət susanın, ailə daxilində zorakılığa göz yumanın boynunda qalır.

Şübhəsiz ki, münaqişəli ailələri nəzarətdə saxlayan polis onlarla profilaktik söhbətlər aparmaqla məişət zorakılığının qarşısını almağa, bu vəziyyətdən bir cinayətin törəməməsinə çalışır. Bunun üçün inzibati-hüquqi tədbirlərdən qanunun yol verdiyi həddə qədər istifadə olunur. Ancaq, əgər ailədən kimsə psixi və fiziki zorakılıqla üzləşirsə və buna "ev bizim, sirr bizim" düşüncəsiylə yanaşırsa, aydın məsələdir ki, faciəli sonluğu önləmək üçün vəziyyətdən "xəbərsiz" olan hüquqi mexanizm də işə düşmür.

Əslində, ailənin qurucularından biri olan qadına hörmət bizim həm dini, həm də milli xüsusiyyətimizin əsas komponentidir. "Cənnət anaların ayaqları altındadır" kəlamı ilə qadını hətta ilahiləşdirən dini dünya görüşünə, qadın gözəlliyini yüz illərdir vəsf edən ədəbi-bədii külliyyata və zəngin mənəvi-əxlaqi kodeksə sahib cəmiyyətimizdə qadınların qətlə yetirilməsi, əlbəttə ki, paradoksdur. Bunun daha ziddiyyətli tərəfi onların başqaları tərəfindən deyil, öz doğmalarının – atasının, qardaşının, həyat yoldaşının zorakılığına məruz qalmasıdır.

Deməli, problemin mahiyyəti, mayası da bir çox halda elə ailələrdən qaynaqlanır.

Bəzən konstitusiyanın cinsindən asılı olmayaraq hər kəsə verdiyi haqlar bəzi ailələrdə təpki ilə qarşılanır və bunun adına mental dəyərlərə saygısızlıq deyib cinayətlərin törədilməsinə zəmin yaradılır. Və qadının davranış tərzinin ailədə kişilərin müəyyən etməsi çox vaxt ziddiyyətlə müşahidə olunur. Bizim toplumun müəyyən qismində də bu hallar norma kimi qəbul olunur və hardasa, ailə dəyəridir. Bir qədər mühafizəkar ailədə isə psixoloji təzyiqləri aşıb bu qaydaların kənarına çıxmaq istəyən qadına ədətən, yumşaq desək, güzəşt edilmir...

Əlbəttə, bu, məişət zorakılığına səbəb olan yeganə faktor deyil, ancaq münaqişə ocağının haradan alovlandığını görmək baxımından ilkin qaynaqdır. Ona görə də, zənnimizcə, qadınlara qarşı zorakılıq halını yalnız bir hadisənin üzərində fokuslanıb qiymət vermək doğru olmaz. Məişət səviyyəsində başlayan ümumi problemin cinayətə qədər inkişaf etməsinin qarşısını almaq üçün, ilk növbədə, ailə daxilində qadın azadlıqlarına münasibət dəyişməlidir. Hansı ki, onlara qanunlarımız da təminat verir.

Yəni, Konfutsinin dediyi kimi, yüz dəfə qaranlığı söyməkdənsə, hərəyə bir şam yandırıb məişət zorakılığı mövzusunu aydınlığa çıxara bilərik.

*"Polis"*

# Çətənə kolları məhv edilib



Ağdaş RPŞ-nin əməkdaşları Pirəzə kənd sakini E.Həsənov tərəfindən kultivasiya yolu ilə yetişdirilmiş, çəkisi 512 kiloqram olan 79 ədəd, Balakən RPŞ-nin əməkdaşları Şəki rayon sakini, əvvəllər məhkum olunmuş K.Hüseynovun Mahamalar kəndi ərazisində kultivasiya yolu ilə yetişdirdiyi, çəkisi 213 kiloqramdan artıq 1103 ədəd, Ucar RPŞ-nin əməkdaşları şəhər sakini R.İsrayılovun yaşadığı evdən 38 ədəd, Saatlı RPŞ-nin əməkdaşları Orta Muğan kənd sakini E.Maxadinova məxsus həyətyanı sahədən 32 ədəd, Sabirabad RPŞ-nin əməkdaşları rayon sakini Ə.Gülməmmədovun həyətyanı sahəsindən 31 ədəd, Sumqayıt ŞPİ-nin əməkdaşları H.Z.Tağıyev qəsəbə sakini, əvvəllər məhkum olunmuş A.Mütəllimova məxsus həyətyanı sahədən 11 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları, Ağcabədi RPŞ-nin əməkdaşları Xocavənd kənd sakini İ.Xankişiyevə məxsus həyətyanı sahədən 18 ədəd çətənə kolu və 7 kiloqram 635 qram marixuana aşkar edərək götürmüşlər.

Baş Narkotiklərlə Mübarizə İdarəsi və Kəlbəcər RPŞ-nin əməkdaşları tərəfindən Zar kəndi ərazisində çəkisi 2 ton 850 kiloqram olan 17.985 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

*N.Cavadov*
*polis mayoru*

# VELOSİPED "QƏNİMİ" YAXALANDI

Abşeron Rayon Polis İdarəsinə "Gənclər şəhərciyi" deyilən yaşayış massivindəki mənzillərin birindən 1500 manat dəyərində "Meiredi" markalı velosipedin oğurlanması barədə müraciət daxil olub. RPİ əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş Cavid Mirzəyev saxlanılıb.



Müəyyən edilib ki, Cavid binanın blokunda həmin mənzilə məxsus dəmir barmaqlıqlardan ibarət saxlanc yerinin qapısının qıfılını sındıraraq velosipedi götürüb. Dan yeri söküləndə isə sakitcə oranı tərk edib. Ancaq polis əməkdaşlarının peşəkarlığı və sayıqlığı sayəsində çox uzağa gedə bilməyib.

Ətrafında aparılmış əməliyyat tədbirləri ilə o da bəlli olub ki, anoloji əməl törədərək həmin massivin digər sakini, Məryəm Abdullayevaya da 600 manat dəyərində maddi ziyan vurub.

İdarə əməkdaşları tərəfindən hər iki vətəndaşın velosipedlərinin tapılaraq təhvil verilməsi təmin edilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Uşaq "avtokreslosu" körpənizin təhlükəsizliyidir

Yol-nəqliyyat hadisələri zamanı böyüklərlə yanaşı, uşaqlar da xəsarət alır və ya həyatını itirir. Bunun qarşısını almaq üçün diqqət etməli məqamlar və vasitələr var. Belə vasitələrdən biri də uşaq avtokreslolarıdır.

Bu gün körpə üçün avtomobil oturacağı seçmək uşaq arabası və ya beşik seçmək qədər vacibdir. Avtomobillərdə oturacaqların quraşdırılmasında əsas məqsəd yalnız yol qəzaları zamanı ciddi deyil, həm də qəfil manevrlər və əyləclər zamanı uşağın təhlükəsizliyini təmin etməkdir. Aparılan tədqiqatlar göstərir ki, uşaq avtokreslosu qəza zamanı ciddi travmaların olması şansını azaltmağa və maşında uşağın maksimal təhlükəsizliyini təmin etməyə şərait yaradır.

Yeri gəlmişkən, uşaq üçün nəzərdə tutulan avtomobil oturacağı ilk dəfə 1935-ci ildə Amerikalı Lester Bresson tərəfindən yaradılıb.



1939-cu ildə ictimaiyyət üçün təhlükəsizlik kəmərləri ilə təchiz edilən ilk uşaq avtomobil kresloları təqdim edilib.

İsveçli professor Aldman kosmonavtların kosmosa göndərilməsini müşahidə edərkən, belə qənaətə gəlir ki, sürətlənmə qüvvəsinin istiqamətindən əks istiqamətə tərəf uzanan zaman təzyiqi əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Bundan sonra Volvo avtomobil istehsalçıları və mühəndisləri həmin fikri təqib edərək, dünyanın ilk uşaq kreslosunu ixtira ediblər. Həmin kresloda uşaq nəqliyyat vasitəsinin hərəkət istiqamətinə qarşı oturdu.

1958-ci ildə martın 20-də BMT-nin vasitəçiliyi Cenevrədə "Nəqliyyat vasitələrində uşaqların təhlükəsizliyinin təmin edilməsi haqqında Saziş" imzalanıb. Uşaqların daşınması üçün ciddi standartlar daha sonra ortaya çıxsa da, bu bir başlanğıc nöqtəsi idi. Daha sonra 1982-ci ildə uşaq avtomobil oturacaqlarının sınanması üçün Avropa standartı qəbul edildi. Əgər bir uşaq boy ölçüsünə görə müvafiq avtokresloda oturursa, yaralanma ehtimalı 75%, ölüm ehtimalı isə 54% azalır.

Bir çox ölkələrdə sürücülərə uşaq daşıyarkən avtokreslodan



istifadə etmələri tövsiyə olunur. Bu tələbə riayət etmədiklərinə görə ciddi cəzalar nəzərdə tutur. Almaniyada uşaq daşıyarkən avtokreslonun olmamasına görə 40, İtaliyada 70, Fransada ən azı 90 avro, ABŞ-da isə 500 dollara qədər cərimə nəzərdə tutulur. Rusiyada cərimənin məbləği 3 min rubl təşkil edir.

Azərbaycanda isə "Yol Hərəkəti Haqqında Qanun"un 56-cı maddəsinin 9-cu bəndinə görə yalnız ön oturacaqda 12 yaşadək uşaqlar daşınarkən xüsusi oturacaqdan istifadə edilməlidir. Arxa oturacaqlarda uşaqların daşınması üçün "avto-kreslo" tələb olunmur. Sürücünün yanındakı sağ ön hissədə xüsusi oturacaq olmadan 12 yaşadək uşaqların daşınmasına görə İnzibati Xətalar Məcəlləsinin 327-ci maddəsinin 2-ci bəndində 60 manat cərimə və 3 bal cəza nəzərdə tutulub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Detektiv janrını kütləviləşdirən yazıçı

**Meqapolis, gecə həyatı, soyuqqanlı xəfiyyələr, polisin gərgin xidməti–qarşı tərəfdə cinayətkarlar, qanqsterlər...**

Filmlərdən izlədiyimiz bu səhnə və personajların yaradıcılarından biri də amerikalı yazıçı Reymond Çandlerdir.




O, 1888-ci il ABŞ-ın Çikaqo şəhərində doğulub. Dayısının himayəsində böyüyən Reymond 1900-cı ildə Londonda Dalic Kollecində ali təhsil alıb. Dövlət işində çalışmaqçün İngiltərə vətəndaşlığını qəbul edib. Bir müddət dövlət qulluqçusu olsa da dövlət sonra könüllü şəkildə işdən ayrılaraq "Vestern Qazete" və "Deyli Ekspres" qəzetlərində müxbir




kimi çalışıb.

1912-ci ildə ABŞ-a qayıdıqdan sonra 1924-cü ildən "Dabney Oil" neft şirkətində mühasib işləyib. Həmin şirkətin vitse-prezidenti vəzifəsinə irəli çəkilsə də içki düşkünlüyü səbəbindən işdən uzaqlaşdırılıb.

R.Çandlerin ilk romanı olan "Dərin yuxu" 1939-cu ildə 57 yaşında işıq üzü görüb. Daha sonra yazdığı "Əlvida sevgilim","Yüksək pəncərə","Çöldəki qız" kimi detektiv romanları ona dünya şöhrəti gətirib. Çandler Hollivud rejissorlarının diqqətini çəkib və bir çox filmlərin ssenaristi olub.

1954-cü ildə həyat yoldaşını itirdikdən sonra tənhalıqdan depressiyaya düşüb, yenidən içki aludəçisinə çevrilib. Bütün bunlar onun yaradıcılığına da təsirsiz ötüşməyib. "Uzun sağollaşma" romanını bu dövrlərdə yazıb. 1956-cı ildə ABŞ vətəndaşlığını aldıqdan sonra Avropa səyahətinə çıxıb. O, 1959-cu ildə pnevmaniyadan hospitalda dünyasını dəyişib.

Reymond Çandler detektiv janrını kütləviləşdirən və ona yeni nəfəs gətirən yazıçılardandır. O,"Sərt detektiv" cərəyanının yaradıcılarındandır. Bu alt janr kəskin sujeti, personajların qəddarlığı, pessimist əhvali-ruhiyyəsi və söz oyunlarının gen-bol tətbiqi ilə fərqlənir. Burada bəzən baş qəhrəman detektiv, polis əməkdaşı və ya təqsirləndirilən şəxs, hətta cinayətkar olur.

*Hazırladı:*
*Aytəkin Nəcəfova*

---

**Abşeron RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 6-dan 16-dək olan müddətdə Masazır qəsəbəsi Yeni Bakı yaşayış kompleksində "Azərnəqliyyat yol tikinti" ASC-nin Mexanikiləşdirmə İdarəsinə məxsus kranı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini M.Muradov müəyyən edilərək saxlanılmışdır. Araşdırma aparılır.

◆◆◆

**Nizami RPİ 24-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində avqustun 2-də Bakı şəhər sakini olan bir nəfərin 80 manatını və mobil telefonunu quldurluq yolu ilə almaqda şübhəli bilinən Cəlilabad rayon sakini E.Abdullayev və Saatlı rayon sakini M.Əliyev saxlanılmışlar. Ətraflarında aparılmış əməliyyat tədbirləri ilə onların həmin gün paytaxt sakini olan bir qadını dəmir parçası ilə hədələyib mobil telefonu almaları da müəyyən edilmişdir.

◆◆◆

**Xəzər RPİ 3-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki 8 evdən qızıl-zinət əşyaları, təmir-tikinti alətləri, kondisioner mühərriki, su qızdırıcısı, naqil və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri Q.Gəncəliyev və İ.Əzizov saxlanılmışlar.

◆◆◆

**BNMİ əməkdaşlarının** daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş M.Musayev və Bakı şəhər sakini Ə.Mirzəyev saxlanılmışlar. Şəxsi axtarış zamanı M. Musayevdən 59 qrama yaxın, Ə.Mirzəyevdən isə 75 qrama yaxın heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə M. Musayevə məxsus "Hyundai" markalı avtomobilə baxış zamanı isə oradan əlavə 10 kiloqram 490 qram heroin, 3 kiloqram




360 qram marixuana, 200 qram tiryək, 1 kiloqram 440 qram metamfetamin və 200 ədəd metadon həbi götürülmüşdür.

◆◆◆

**BNMİ CBRŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Cəlilabad rayon sakini Ş.Nuriyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 700 qram heroin və 300 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər sakinləri, əvvəllər məhkum olunmuş R.İsgəndərov və V.Həmzəyev saxlanılmışlar. Şəxsi axtarış zamanı R.İsgəndərovdan 123 qrama yaxın heroin və 112 qramdan artıq metamfetamin, V.Həmzəyevdən isə 5 qram heroin, 14 qrama yaxın metamfetamin və elektron tərəzi aşkar olunaraq götürülmüşdür.

◆◆◆

**Kəpəz RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş N.Məmmədov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 11 qrama yaxın marixuana aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evin yaxınlığında gizlətdiyi əlavə 3 kiloqram 630 qram marixuana da götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Z.Baqautdinov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 3 kiloqram 100 qram heroin və 300 qramdan artıq metamfetamin aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov,*
*polis mayoru*

◆◆◆

# Yazıçı, jurnalist və kəşfiyyatçı...

Bir neçə peşəni özündə birləşdirmək yazıçının keşməkeşli həyat yolundan, dünyagörüşünün rəngarəngliyindən və yaradıcılığının qeyri-adiliyindən xəbər verir. Həyatının bir dönəmində Britaniya kəşfiyyatına işləyən Qrem Qrin o yazıçılardandır ki, əsərləri peşə fəaliyyəti ilə birbaşa bağlıdır. Bu səbəbdən də

## ANONS

romanları təxəyyüllə yanaşı, təcrübənin məhsuludur.

Qrem Qrin 1904-cü ildə İngiltərənin Hartfordşir qraflığında dünyaya göz açıb. Kiçik yaşlarından mütaliəyə həvəsi olub və əsasən, Haqqard, Konrad kimi yazıçıların macəra romanlarına maraq göstərib.

Oksford Universitetinin Balliol Kollecini bitirdikdən sonra "Nottingem Cornel" və "Tayms"qəzetlərində müxbir işləyib.

## Avqust ayının 25-dən 31-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 282 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 40 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 293, o cümlədən borclu şəxs qismində axtarışda olan 173 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 180 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik